UOT 37.

***Sahilə Abdüləzim qızı Orucova,***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universitet*

## TƏHSİLİN İNKİŞAFINDA QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ ƏSAS FUNKSİYALARI

***Сахила Абдулазим гызы Оруджова,***
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Государственный Педагогический Университет*

## ОСНОВНЫЕ ФУНКЦИИ НЕПРАВИТЕЛЬСТВЕННЫХ ОРГАНИЗАЦИЙ В РАЗВИТИИ ОБРАЗОВАНИЯ

***Sahila Abdulazım Orujova,***
*PhD in pedagogy, associate professor*
*Azerbaijan State Pedagogical University*

## THE MAİN FUNCTİONS OF NON-GOVERNMENTAL ORGANİZATİONS İN THE DEVELOPMENT OF EDUCATİON

**Xülasə:** Müəllif məqalədə belə qənaətə gəlir ki, XXI əsrdə qeyri hökumət təşkilatları vətəndaş cəmiyyətinin quruculuğunda aparıcı rol oynayır və cəmiyyətin bir çox problemlərinin həllində insanlara dəstək olur.

Ölkəmizdə təhsilin inkişafına dəstək olan qeyri-hökumət təşkilatları fəaliyyət göstərir. Bu təşkilatlar insan inkişafının bütün cəhətlərinin əhatə olunduğu sahələrdə ölkə əhalisinə dəstək olmaq üçün səylərini səfərbər edir.

***Açar sözlər:*** *Qeyri hökumət təşkilatları, təhsil, inkişaf, təhsil layihələri, proqramlar, ictimai birlik, vətəndaş cəmiyyəti, demokratiya, inteqrasiya, humanizm, vətənpərvərlik, milli dəyərlər*

**Резюме:** Автор статьи пришел к выводу, что в XXI веке неправительственные организации играют ведущую роль в построении гражданского общества и поддерживают людей в решении многих проблем общества. Существуют неправительственные организации, поддерживающие развитие образования в нашей стране. Эти организации мобилизуют свои усилия по поддержке населения страны в областях, охватываемых всеми аспектами развития человека.

***Ключевые слова:*** *неправительственные организации, образование, развитие, образовательные проекты, программы, социальное единство, гражданское общество, демократия, интеграция, гуманизм, патриотизм, национальные ценности*

**Summary:** The author concludes that in the twenty-first century non-governmental organizations play a leading role in the building of civil society and support people in solving many of the problems of society.

There are non-governmental organizations supporting the development of education in our country. These organizations mobilize their efforts to support the country's population in areas covered by all aspects of human development.

***Key words:*** *Non-governmental organizations, education, development, education, programs, social unity, civil society, democracy, integration, humanism, patriotism, national values*

XXI əsrdə dünyanın hər yerində Qeyri-hökumət təşkilatları (QHT) vətəndaş cəmiyyətinin quruculuğunda aparıcı rol oynayır və cəmiyyətin bir çox problemlərinin həllində insanlara dəstək olur. Ölkəmizdə də həm yerli, həm də beynəlxalq QHT-lər fəaliyyət göstərir.

Mütəxəssislərin fikrincə Qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyəti və hüquqi dövlətin əsas atributudur. Bu gün ölkəmizdə 2500-dən çox QHT fəaliyyət göstərir. Onların çoxu dövlət qeydiyyatına alınıb və hüquqi şəxs statusuna malikdir. Onların fəaliyyətini əlaqələndirən bir çox birliklər yaradılıb. Buna QHT Forumu, QHT Konqresi və QHT Konfederasiyasını misal göstərmək olar. QHT-lərin dairəsinin genişlənməsində və onların fəaliyyət istiqamətlərinin inkişaf etdirilməsində beynəlxalq təşkilatlar böyük rol oynayır.

Araşdırmalar göstərir ki, Qeyri-hökumət təşkilatlarının başlıca vəzifəsi elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək, yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərmək, ölkənin və xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə birgə layihələr həyata keçirmək, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması, Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardım göstərmək, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə əməkdaşlıq etmək, elmi-tədqiqatların aparılmasına yardım göstərmək, ölkə ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verməkdən ibarətdir.

Ümummilli liderimiz H. Əliyevin 13 iyun 2000-ci ildə imzaladığı "Qeyri-hökumət təşkilatları ictimai birliklər və fondlar haqqında Azərbaycan Respublikasının Qanunu"nda qeyd edilir: "Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan və Qeyri-hökumət təşkilatının nizamnaməsində nəzərdə tutulan məqsədlərə zidd olmayan, ölkə daxilində və xaricdə hər hansı fəaliyyət növünü həyata keçirə bilər" (22-ci maddə).

Məlum olduğu kimi Qeyri-hökumət təşkilatları qeyri kommersiya məqsədli təşkilatlardır. Mütəxəssislər çox vaxt Qeyri-hökumət təşkilatını üçüncü sektor adlandırır və göstərirlər ki, QHT-lər nə hökumət, nə də biznes sferasına aiddir. Onlar cəmiyyətdə fərqli və müstəqil rola malikdirlər. Qeyri-hökumət təşkilatları əsasən qrantlar vasitəsilə maliyyələşirlər.

Ölkəmizdə təhsilin inkişafına dəstək ola bilən bir çox Qeyri-hökumət təşkilatları fəaliyyət göstərir. Onlara misal olaraq "ABŞ təhsilli Azərbaycan məzunları", "Almaniyada təhsil alan Azərbaycanlı Tələbələr və Elmi İşçilər Birliyi", "Araz Tədqiqat Mərkəzi", "Azərbaycan Maarifçi Xeyirxah Xanımlar İctimai Birliyi", "Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatı", "Azərbaycan Musiqisinin İnkişafı və Tədrisi", "Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatı", "Azərbaycan Gənclərinin Demokratik İnkişafına Yardım İctimai Birliyi", "Azərbaycan-Britaniya Məzunları İctimai Birliyi", "Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti", "Besam Beynəlxalq Elmi-strateji Araşdırmalar Birliyi", "Elm, Texnki Tərəqqi və Təhsil Fondu", "Gənc nəslin Maarifləndirilməsi İctimai Birliyi", "Gənclər üçün Təhsil Mərkəzi", "Qadın və inkişaf mərkəzi", "Sağlam inkişaf və maarifləndirmə Mərkəzi", "Türkiyə Universitetləri Məzunları İctimai Birliyi", "Universitet təhsilli Qadınlar Cəmiyyəti", "Vətənpərvər Maarifçi Gənclər İctimai Birliyi" və s. göstərə bilərik.

Bu təşkilatlar insan inkişafının bütün cəhətlərinin əhatə olunduğu sahələrdə ölkə əhalisinə dəstək olmaq üçün səylərini səfərbər edir. Ümumiyyətlə, real həyatda tətbiqilik baxımından təhsilin inkişafı prosesində QHT-lərin böyük rolu vardır. Çünki onların təhsillə bağlı fəaliyyəti çərçivəsində baş tutmuş konfranslardan və onların ortaya qoyduqları ideyalardan, prinsiplərdən, analitik yanaşmalardan, ayrı-ayrı sosial qurumların paylaşdığı müsbət və mənfi təcrübələrdən, alternativ inkişaf modellərindən faydalanmaq mümkündür.

QHT-lərin təhsilin inkişafı sahəsindəki fəaliyyəti yalnız tədbirlərin keçirilməsi və təcrübə mübadiləsinin təşkilindən ibarət deyildir. Bu gün müstəqil dövlətimizin inkişafı yeni nəslin və müasir təfəkkürün formalaşması, milli və mənəvi dəyərlərin qorunub saxlanması və po-

tensial inkişaf perspektivlərinin reallaşdırılmasına yardım göstərmək öhdəliyi daşıyan QHT-lər həmin konseptual ideyaların və qabaqcıl təcrübənin bölgə və regionların inkişaf proqramlarında nəzərə alınmasına da çalışır. Ölkə təhsilinin inkişaf məqsədlərinə nail olunması və qlobal səviyyədə qəbul olunmuş digər təhsil öhdəliklərinin yerinə yetirilməsi üçün təhsil qurumlarına dəstək verməklə QHT-lər eyni zamanda yerli səviyyədə insan inkişafını, yüksək səviyyəli təhsili, kamil vətəndaşın formalaşdırılmasını, sivil cəmiyyət və güclü dövlətin inkişafını, elmi-texniki tərəqqini və ədalətli inkişafı dəstəkləyir.

2000-ci ilin sentyabr ayında BMT-nin Nyu-York şəhərində yerləşən qərargahında dünya dövlətləri başçılarının iştirakı ilə Minilliyin Sammiti keçirildi. 189 dövlət başçısı, o cümlədən milli liderimiz H. Əliyev sammitin yekun sənədi olan Minilliyin Bəyannaməsini imzaladı. Həmin Bəyannamədə 2015-ci ilədək ifrat yoxsulluq, sağlamlıq, gender bərabərliyi, təhsil, ətraf mühit kimi sahələrdə inkişaf məqsədlərinin yerinə yetirilməsi öhdəliyi təsdiq olundu. Həmin bu öhdəliklərin realizə edilməsində də QHT-lər dövlətə dəstək verir.

Ölkəmizdə son illər müşahidə olunan sürətli sosial iqtisadi inkişaf dövlətlə vətəndaş cəmiyyəti institutları arasında münasibətlər modelinin müasirləşdirilməsini, demokratiyanın dərinləşdirilməsini, milli maraqların qorunması sahəsində Qeyri Hökumət Təşkilatlarının fəaliyyətinin təşviqini zəruri edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, biz iqtisadi uğurlarımızı, ölkəmizin dinamik inkişafını siyasi islahatlarsız, vətəndaş cəmiyyəti olmadan, daxili ictimai-siyasi proseslərdə vətəndaşların iştirakı olmadan təsəvvür etmirik. Qeyri Hökumət Təşkilatları ayrı-ayrı fəal vətəndaşların arzularını reallaşdıran bir institutdur. Qeyri Hökumət Təşkilatları ictimai davranış normalarını müəyyən edən və onun həyata keçirilməsini təlqin edən institutlardır.

Demokratik cəmiyyət quruculuğunda QHT-lərin müstəsna əhəmiyyəti danılmazdır. Araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrin ictimai-siyasi həyatını QHT-lərsiz təsəvvür etmək çətindir. Onlar ölkə həyatının bütün sahələrinə nüfuz edərək mövcud problemlərin həllində fəal iştirak edirlər. Hazırda ABŞ-da bir milyon sakinə 4324, Kanadada 4800 təşkilat, Böyük Britaniyada 5172, İsveçdə 20000 Qeyri Hökumət Təşkilatı düşür (5,3).

Ölkəmizdə fəaliyyət göstərən Qeyri Hökumət Təşkilatları içərisində cəmiyyətə xeyirxahlıq, insanpərvərlik və vətənpərvərlik dəyərlərini aşılayan Heydər Əliyev Fondunun xüsusi yeri vardır.

Azərbaycanda qeyri-hökumət təşkilatlarının yaranmasının tarixi kökləri cox qədim zamanlara gedib çıxmır. Ölkəmizdə güclü vətəndaş cəmiyyəti institutlarının təşəkkül tapması, vətəndaş təşəbbüskarlığının təşviqi Azə-rbaycanın ikinci dəfə müstəqillik əldə etdiyi dövrə təsadüf edir. Sovet dönəmində demokratik təsisatların yaradılmasına icazə verilmirdi. Bu zaman xeyriyyə və dini təşkilatlar istisnalıq təşkil edirdi. Sovet Azərbaycanında hökumət assosiasiyalar, həmkarlar ittifaqı, əlillər, qadınlar və gənclərin problem ilə məşğul olan, eləcə də yaradıcılıq birliklərinin yaradılması və maliyyələşdirilməsini özü təşkil edirdi.

Azərbaycanda ilk qeyri-hökumət təşkilatlarının yaradılmasının təşəbbüskarları ziyalılar olmuşdur. Onlar özlərinin potensial imkanlarından xalqın düşdüyü çətin vəziyyətdən çıxarmaq üçün faydalanmaq istəyirdilər. Məhz sovet dövlətinin dağılması ərəfəsində institut, idarə və təşkilatların nəzdində xüsusi məqsəd daşıyan dərnək və cəmiyyətlər yaranmağa başladı. Həmçinin müəssisələrdə vətəndaşları birləşdirən xeyriyyə və mədəniyyət mərkəzləri yaranmağa başladı.

Tədqiqatçılar Azərbaycan Qeyri Hökumət Təşkilatlarının keçdiyi tarixi inkişaf yolunu aşağıdakı dörd mərhələyə bölürlər. Birinci mərhələ 1990-1999-cu illər; ikinci mərhələ 1999-2008-ci illər; üçüncü mərhələ 2008-2012-ci ilin əvvəli; dördüncü mərhələ isə 2012-ci ildən bu günə qədər olan mərhələni əhatə edir.

Ölkəmizdə fəaliyyət göstərən maarif yönümlü Qeyri-hökumət təşkilatlarının başlıca funksiyalarından biri də Azərbaycan Təhsil Nazirliyinin fəaliyyətini, gördüyü işləri müntəzəm olaraq yaxından izləmək və təhlil etməkdir. Bu da ölkə təhsilinin inkişafına gözəl töhfələr verilməsinə imkan yaradır. Bu nəzarət və təhlillər Təhsil Nazirliyi ilə əlaqələrin peşəkar şəkildə qurulmasına və "Azərbaycan Gənclərinin 2007-2015-ci illər ərzində Xaricdə Təhsil üzrə Dövlət Proqramı"nın realizəsində şəffaflığın artırılma-

sına yardım edir. "Azərbaycan Britaniya Məzunları İctimai Birliyi"nin Britaniya səfirliyinin dəstəyi ilə keçirdiyi layihə çərçivəsində Bakıdakı 8 universitet, Sumqayıt şəhər Dövlət Universiteti, habelə Qəbələ şəhərinin gəncləri məlumatlandırılıb. Məlum olduğu kimi Britaniya təhsili bütün dünyada məşhurdur. Hər il Birləşmiş Krallıq yüz minlərlə xarici tələbəni qəbul edir. Keçirilən tədbirlərdə azərbaycanlı gənclərə öz potensialını inkişaf etdirmək üçün Britaniya təhsil sisteminin modern, yaradıcı və inkişafa aparan akademik şəraiti haqqında geniş məlumatlar verilir, xaricdə alınan təhsilin gələcəyi qurmaq, iş səviyyəsini yüksəltmək və imkanları yaxşılaşdırmaq üçün möhkəm bünövrə olacağı gənclərin diqqətinə çatdırılır.

Uğurlu karyeraya gedən yol təhsildən keçir. Bu yolda inamla irəliləmək üçün xarici təcrübəni öyrənmək və yaymaq maarifyönlü ictimai birliklərin başlıca funksiyalarındandır.

"Azərbaycan Britaniya Məzunları İctimai Birliyi" 2014-cü ildə ölkəmizin təhsilinin inkişafına dəstək olan "Təhsil üçün əl-ələ" layihəsi hazırlayıb. Bu layihənin başlıca məqsədi respublikamızın bir sıra məktəblərinin yuxarı sinif şagirdləri ilə görüşmək, onlarla söhbət etmək, ali təhsil və fərqli ixtisaslar, eləcə də xaricdə təhsil imkanları haqqında məlumat verməklə gəncləri peşələrə və təhsilə istiqamətləndirməkdir.

Birliyin üzvləri gənclərin gələcək təhsil həyatlarında daha uğurlu olmaları üçün onlarla öz təcrübələrini bölüşür.

Birliyin üzvləri xaricdə təhsil almaq istəyən gənclərlə davamlı əlaqə saxlayır, həm təqaüd proqramları, həm xarici ölkə universitetləri haqda məlumatlandırma işlərini uğurla davam etdirir.

"Azərbaycan Britaniya Məzunları" İctimai Birliyi təhsilin inkişafına layiqli dəstək ola biləcək bir çox layihələri reallaşdırıb və reallaşdırmaqdadır. Məs. "Gənclər arasında milli vətənpərvərlik ruhunun təbliği", "Sağlam və vətənpərvər gənclik naminə", "İnternat və uşaq evləri məzunlarının sosial adaptasiyası", "Sağlam həyat tərzinin formalaşdırılmasında internet resursların fəaliyyətinin gücləndirilməsi", "Mənim biliyim mənim sərvətimdir", "Region gəncləri arasında dini radikallıq və ekstremizmə qarşı maarifləndirmə", "Mədəni insan modelini etik davranışlar formalaşdırır", "Ətraf mühit və dayanıqlı inkişaf məqsədləri", "Erkən nikahlara yox de", "Azərbaycan tarixini öyrənək", "Gənclərin ailədə və məktəbdə dini tərbiyəsinə dair maarifləndirmə", "Cehiz vermə, təhsil ver", "Ekologiyanı qoruyaq", "Milli-mənəvi dəyərlərin təbliği sahəsində maarifləndirmə", "Tolerantlıq və islamafobiya", "Sağlam ailə modeli yaradaq", "Mədəni irsimiz rəqəmsal dünyada" və s. Göründüyü kimi bu rəngarəng məzmunlu layihələrin hər biri Azərbaycan təhsilinin inkişafına istiqamətlənmişdir.

"Azərbaycan Gənclərinin Avropaya inteqrasiyası Təşkilatı" gənclərin maarifləndirilməsi, Avropaya inteqrasiyası prosesində fəal iştirak edir, milli-mədəni irsin qorunması ilə bağlı bir sıra yerli və beynəlxalq layihələr həyata keçirməkdədir. Bu məqsədlərə çatmaq üçün Azərbaycan mədəniyyətini, tarixini Avropa ölkələrində təbliğ etmək; gənclər arasında əməkdaşlığın inkişafı sahəsində xarici ölkələrin təcrübəsini öyrənmək və müsbət təcrübəni yaymaq; gənclərin problemlərinin araşdırılması və həlli barədə təkliflər hazırlamaq; gənclərin mədəni inkişafına kömək etmək; sülhü, bəşəri dəyərləri təbliğ etmək; gənclərin məlumat və bilik mənbələrinə çıxış imkanlarını araşdırmaq və s. funksiyaları həyata keçirir.

Müxtəlifyönlü maarifçi Qeyri-hökumət təşkilatları təhsil sahəsində kifayət qədər uğurlu layihələr həyata keçirir. Bu layihələrdə gəncliyin gələcək inkişafının müxtəlif aspektləri nəzərdə tutulur. Birliklərin demək olar ki, hamısı dövlətin təhsil siyasətini dəstəkləyir və bu siyasətin inkişafında yaxından iştirak edir. Digər bir tərəfdən bu birliklər Azərbaycanda vətəndaş cəmiyyətinin və demokratiyanın inkişafında yetişən gənc nəslin fəal iştirakına nail olmaq, onların təşəbbüskarlıq və yaradıcılığının inkişaf etdirilməsi, təhsil siyasətinin həyata keçirilməsi üçün səmərəli mexanizmin yaradılması, mətbuat və tədbirlər vasitəsilə gənclərin təhsillilik səviyyəsinin monitorinqi, əlil, yetim, kimsəsiz, qaçqın, məcburi köçkün, yeniyetmələrin və uşaqların hüquqlarının müdafiəçisi kimi də cəmiyyətin həyatında mühüm rol oynayır.

Bu təşkilatların fəaliyyətinin başlıca funksiyalarından biri də gənc nəslin dövlətçilik maraqlarına xidmət göstərməsi, milli ideya və yüksək vətənpərvərlik ruhunda yetişdirilməsinə dəstək verməkdən ibarətdir. Bu birliklərin bir çoxu

öz fəaliyyətlərini gənclər arasında vətənpərvərlik, humanizm və milli mənəvi dəyərlərin qorunub saxlanılması istiqamətində maarifçilik işi aparmaq, gənclərin elmi biliklərinin artırılması və dünyagörüşünün inkişafına kömək etmək, onların ictimai fəallığının artırılmasına dəstək olmaq, sağlam həyat tərzi, narkomaniya və QİÇS-ə qarşı mübarizə istiqamətində qurur.

Maarif istiqamətli Qeyri-hökumət təşkilatlarının başlıca funksiyalarından biri də uşaq və gənclərin sosial, hüquqi və psixoloji problemlərinin həllinə dəstək olmaq, onların inkişafına təkan vermək və fəal ictimai həyata cəlb edərək ölkənin layiqli vətəndaşı kimi böyümələrinə nail olmaqdan ibarətdir.

**Problemin aktuallığı:** Bu məqalənin aktuallığı ondan ibarətdir ki, ölkəmizdə fəaliyyət göstərən Qeyri-hökumət təşkilatlarının vətəndaş cəmiyyəti quruculuğuna, dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına, təhsilin inkişafına təsiri diqqətə çatdırılıb.

**Problemin elmi yeniliyi:** Qeyri-hökumət təşkilatlarının təhsilin inkişafındakı rolu sistemli şəkildə araşdırılmışdır.

**Problemin tətbiqi əhəmiyyəti:** Qeyri-hökumət təşkilatlarının təhsilin inkişafındakı rolu pedaqoji ictimaiyyəti təhsil layihələrinin reallaşmasında daha fəal mövqe tutmağa sövq edə bilər. Həmçinin Qeyri-hökumət təşkilatlarının pedaqoji yönümlü fəaliyyətini öyrənən gələcək tədqiqatçılar üçün də bu məqalə faydalı mənbə ola bilər.

## Ədəbiyyat:

1. Azərbaycan QHT Davamlılıq indeksi 2011 /http://transition. usaid.gov/locations/evrop-eurasia/dem.gov/ngoindex/.
2. Azərbaycan Respublikasında QHT-lərə Dövlət Dəstəyi Şurası.Bakı, 2008.
3. Azərbaycan Milli QHT Forumu. www.mg.xeber.az.
4. Hacılı E. Azərbaycanda QHT-lərin yaranması və fəaliyyəti // Analitika, 2008, 3 sentyabr
5. Həsənov Ə, Şirinov A. Qeyri hökumət təşkilatları üçün yaddaş kitabı. Bakı: ISAR 2002.
6. Quliyev A. QHT-lərin tarixinə ümumi bir nəzər. “525-ci qəzet”, 2008, 12 yanvar
7. Zülfüqarlı M. Elm və təhsil sahəsində hökumət - QHT əməkdaşlığı Bakı, 2008.
8. www.heydar-aliyev-foundation.org

**E-mail:** sahile.orucova@yahoo.com
**Rəyçilər:** *ped.ü.fəls.dok.,dos.* E. Hüseynova
*ped.ü.fəls.dok.,dos.* H. Cəfərov
**Redaksiyaya daxil olub:** 11.12.2018